# Bilik iqtisadiyyatı davamlı inkişafın etibarlı mənbəyidir

**❒ Son illər bəşəriyyət özünün inkişafında bilik iqtisadiyyatna söykənən yeni fazaya – innovasiya mərhələsinə daxil olur. Bu da təsadüfi deyil, çünki biliklər özünü bilavasitə istehsal qüvvəsi şəklində göstərir. Buna görə də dünyanın qabaqçıl ölkələri müasir iqtisadiyyat növünün – bilik iqtisadiyyatının formalaşması və inkişaf etməsi problemlərini diqqət mərkəzində saxlayır. Çünki məhz yeni iqtisadiyyata keçid davamlı iqtisadi inkişafı və cəmiyyətin rihafını təmin etməyə imkan verəcək. İnkişafının yeni dövrünü yaşayan Azərbaycanda da bilik iqtisadiyyatına keçid məsələsi böyük əhəmiyyət daşıyır və instutisional səviyyədə ciddi müzakirələr aparılır.**



Ümumiyyətlə, bilik iqtisadiyyatı nədir? “Bilik iqtisadiyyatı” terminindən ilk dəfə 1966-cı ildə amerikalı alim Frits Mahlupun istifadə etdiyi məlumdur. Hazırda bu termin biliklərin həlledici rol oynadığı iqtisadiyyat növünü müəyyənləşdirmək üçün istifadə olunur. Hazırda postsənaye cəmiyyətinin və bilik iqtisadiyyatının formalaşması problemlərinə böyük diqqət verilir. Bu gün bu faktı hamı qəbul edir ki, bilik iqtisadiyyatı postsənaye, informasiya cəmiyyətinin ən yüksək inkişaf mərhələsidir və onun fərqləndirici cəhəti istehsalatda insan amilinin və onun potensialının inkişafı üçün əlverişli şəraitin yaradılmasıdır. İnsanın planetar inkişafın ümumi mənzərəsindəki yerini önə çıxaran alimlər biliklərə söykənən iqtisadiyyatın hər keçən gün tələbləri artan bəşəriyyətin qarşısında dayanan aktual çağırışlara adekvat cavab verəcəyini bildirirlər. Beləliklə, tanınmış tədqiqatçılar bildirirlər ki, məhz insan, onun intellekti ictimai quruluş sistemində mərkəzi yer tutmalı, bilik iqtisadiyyatının formalaşmasında insan kapitalı və təhsil önə çıxarılmalıdır. Bilik iqtisadiyyatının vacib fərqləndirici xüsusiyyəti budur ki, toplanmış milli sərvət əvvəllər maddi məsrəflərlə bağlı idi, bilik iqtisadiyyatı şəratində isə milli sərvətin toplanması daha çox elmtutumlu aktivlərdən asılı olur.




Bu, bir həqiqətdir ki, dünyada təhsilə yatırılan sərmayələrin məbləği artır. Hesablamalara görə, bəşəriyyətin malik olduğu biliyin 90 faizi son 30-40 il ərzində əldə olunmuşdur. Bundan başqa, son illərin vacib kəşf və ixtiralarının müəllifləri də, demək olar ki, müasirlərimizdir. Bu isə təbii resurslardan istifadəyə əsaslanan iqtisadiyyatdan biliklərə söykənən iqtisadiyyata keçidin aşkar əlamətidir. Mütəxəssislər hesab edirlər ki, bilik iqtisadiyyatı ictimai inkişafın yeni mərhələsidir və biliklər dünyanın iqtisadi mənzərəsini dəyişdirən güc olaraq önə çıxır. Məsələn, “Tetris” adlı məşhur elektron oyunun müəllifi hazırladığı proqrama görə 15 min dollar qazanmışdı. Onun çalışdığı şirkət isə “Tetris” oyununun müəllif hüququnu tanınmış “Nintendo” şirkətinə 4 milyon dollara satmışdı. “Nintendo”nun da bu oyunun yayılmasından ümumi qazancı 1 milyard dolları keçmişdi.

Eyni sözləri, İSQ ani mesajlaşma kompüter proqramı barədə də demək olar. 1995-ci ildə İsraildə yaşayan yuxarı sinif şagirdləri internet üzərindən bir-birilə əlaqə saxlamaq məqsədilə sadə və rahat mesencer yaratmışdılar. Sonradan “Mirabilis” şirkəti tərəfindən hüquqları alınan İSQ sürətlə dünyaya yayılmış, son nəticədə AOL kimi nəhəng şirkətin diqqətini çəkmişdi. Çox keçməmiş cüzi məbləğdə yaradılan İSQ 407 milyon dollara ABŞ şirkəti tərəfindən alınmışdı. Göründüyü kimi, insan amili və təhsilin inkişafı böyük dəyərlərin meydana gəlməsinə və iqtisadi mənzərənin dəyişməsinə təkan verir.

İqtisadi artım problemlərinin müzakirə olunduğu və həllinə çalışıldığı dünyada Azərbaycan dövləti də bu məsələni diqqət mərkəzində saxlayır, insan kapitalı və təhsilin hərtərəfli inkişafına dəstəyini əsirgəmir. Ölkəmizdə insan kapitalının inkişafı ilə bağlı ciddi islahatlar həyata keçirilir. Müasir iqtisadiyyatın ən mühüm sosial-mədəni amilinə çevrilən insan kapitalının formalaşması və inkişafı Azərbaycanda həyata keçirilən dövlət proqramlarının əsas prioritetlərindən biridir. Məlumdur ki, iqtisadiyyatda insan kapitalı insana yönələn investisiyanın həcmi ilə ölçülür. Təsadüfi deyil ki, dünyada iqtisadi artımın 16 faizi fiziki kapital, 20 faizi təbii ehtiyatlar, 64 faizi isə məhz insan kapitalı hesabına əldə olunmuşdur. Buna görə də insan kapitalına yönələn xərclərin artması nəticədə həmin ölkənin gələcəkdə daha da inkişaf etməsinə səbəb olur.

Azərbaycanda da dövlət siyasətinin mərkəzində insan amili durur. Dövlət neftdən gələn gəlirləri insan kapitalına çevirir. Dövlətin bugünkü sosial siyasəti əhalinin və onun müxtəlif qruplarının həyat səviyyəsinin durmadan yüksəldilməsinə xidmət edir. Bu siyasətin əsas məqsədi də insan kapitalını formalaşdırmaq və inkişaf etdirməkdən ibarətdir. Çünki insan kapitalının səviyyəsi yüksək olan ölkələrdə sosial-iqtisadi islahatlar daha uğurla həyata keçirilir, siyasi şüur və mədəniyyət yüksəlir, vətəndaş cəmiyyəti formalaşır və insanlar sosialyönümlü dövlətin möhkəmləndirilməsi və inkişafı proseslərində yaxından iştirak edirlər. Təhsilin keyfiyyətinin artırılması, həmçinin bu yöndə müxtəlif dövlət və beynəlxalq əhəmiyyətli layihələrin həyata keçirilməsi də birbaşa cəmiyyətimizin elmi səviyyəsinin, təfəkkürünün inkişafına xidmət edir. Gənclərin yüksək səviyyəli və keyfiyyətli təhsillə təmin olunması, onların bilikli və vətənpərvər vətəndaş kimi yetişdirilməsinə yönəlmiş addımlar da dövlət gənclər siyasətinin mühüm elementlərindən biridir. Bir sözlə, təhsilin inkişafına diqqət yetirilməsi insan kapitalının daha da güclənməsinə öz töhfəsini verir.

Ümumiyyətlə, biliyə əsaslanan iqtisadiyyata keçid prosesində əhalinin məşğulluq göstəricisi vacibdir. Çünki ölkələrin iqisadiyyatını kənd təsərrüfatı, emal-istehsal və xidmət sahələri təşkil edir. Kənd təsərrüfatı qeyri-neft sektoru olaraq Azərbaycan əhalisinin ərzaq təhlükəsizliyinin təminatı baxımından ölkə iqtisadiyyatının əsas strateji sahəsi hesab olunur. Hazırda ölkə əhalisinin yarısı kənd yerlərində yaşayır və əmək ehtiyatlarının 35 faizi kənd təsərrüfatı ilə məşğuldur. Deməli, kənd təsərrüfatı sahəsinin inkişafı strateji əhəmiyyət daşıyır. Bəzi ölkələrdə kənd təsərrüfatı sahəsi davamlı valyuta gəlirlərinin əldə olunmasına xidmət edir. Məsələn, kənd təsərrüfatı İsrailin ən yüksək inkişaf etmiş sahəsidir. Ərazisinin kənd təsərrüfatı üçün əlverişsiz olmasına baxmayaraq, İsrail təzə məhsulların iri ixracatçısı sayılır və kənd təsərrüfatı texnologiyası sahəsində lider ölkələrdən biridir. Bununla belə, yüksək bilik istehsal edən yəhudi dövləti sonrakı mərhələdə, yəni kənd təsərrüfatı məhsullarının istehsalından yüksək elm, bilik tutumlu məhsullar istehsalına keçməyi bacarmışdır. Təbii ki, İsrail tədqiqat və elmi inkişafa ən çox maliyyə vəsaiti yatıran ölkələr sırasındadır və bu amil yəhudi dövlətinin qabaqcıl ölkələrlə bir cərgədə dayanmasına şərait yaradır.

Qeyd etmək vacibdir ki, İsraildə tədqiqat və elmi inkişaf əsasən universitetlərdə, dövlət tədqiqat institutlarında, tibbi mərkəzlərdə, yüzlərlə mülki və hərbi müəssisələrdə həyata keçirilir. Hökumət və dövlət qurumları tədqiqat və elmi inkişaf üçün lazım olan vəsaitin yarıdan çox hissəsini verir. Bu vəsaitlərin böyük hissəsi iqtisadi inkişafa, əsasən də sənaye və kənd təsərrüfatı sektoruna ayrılır. Müxtəlif səhiyyə və sosial rifah sahələrinə aid tədqiqat işlərinə də kifayət qədər vəsait sərf olunur. Elmi tədqiqatların böyük əksəriyyəti universitetlərdə həyata keçirilir və universitetlər hər il çoxsaylı patent əldə edir. Mütəxəssislər vurğulayırlar ki, bu, universitetlər ilə sənaye sahələri arasındakı praktik əlaqənin yüksək səviyyədə olmasından irəli gəlir.

Hüquqi baxımdan müstəqil qurum olan İsrail Elm Fondu da rəqabətli tədqiqatın əsas maliyyə mənbəyidir və bu fond minlərlə fərdi tədqiqatçını, xüsusi proqramları maliyyələşdirir.



Eyni sözləri, Cənubi Koreya və Malayziya haqqında da demək olar. Xüsusilə də Cənubi Koreya son 50 il ərzində bilik iqtisadiyyatına keçməklə uğur qazanmışdır. Bu gün müasir texnologiya nəhəngləri “Samsung və “LG” texnologiyalar, “Hyundai” və “KİA” isə avtomobil bazarında uğurlu və rəqabətdə önə çıxmağı bacaran şirkətlər kimi tanınır.

Əlbəttə, Azərbaycan neft ölkəsidir və son illər iqtisadi inkişafın əldə olunmasında “qara qızıl”ın rolu böyükdür. Bununla belə, neft kapitalının insan kapitalına çevrilməsi və bilik iqtisadiyyatına keçidin təmin olunması Azərbaycan Prezidenti İlham Əliyevin iqtisadi inkişaf siyasətinin əsas müddəalarından birini təşkil edir. Məhz bu siyasi kursun uğurlu tətbiqi nəticəsində ölkədə hərtərəfli inkişaf baş vermişdir. Bundan başqa, insan kapitalının formalaşmasında əsas rol oynayan təhsilin inkişafı ilə bağlı dövlət başçısının təsdiq etdiyi müvafiq dövlət proqramları hazırda uğurla icra edilir. Azərbaycanın ali təhsil sisteminin Avropa təhsil məkanına inteqrasiyası üçün atılan addımlar, icra edilən dövlət proqramları təhsil sistemində keyfiyyətcə yeni inkişaf meyillərinin əldə edilməsinə, yüksək nəticələrin qazanılmasına xidmət edir. Bu da, şübhəsiz, ölkəmizin milli kadr potensialının kəmiyyət və keyfiyyət baxımından yetişdirilməsi və təkmilləşdirilməsi işinə mühüm töhfələr verir. Bununla belə, bilik iqtisadiyyatına keçidi sürətləndirmək üçün ali təhsil, elmi-araşdırma qurumları və istehsalat birlikləri ilə əməkdaşlığı gücləndirməlidir. Biliyin əsasən universitetlərdə verildiyini nəzərə alsaq, belə əməkdaşlıq mexanizmlərinin yaradılması və formalaşdırılmasının davamlı iqtisadi artımın təmin edilməsi üçün həyati əhəmiyyət daşıdığını qeyd edə bilərik.

Azərbaycanda artıq bu istiqamətdə müzakirələr aparılır. Bu günlərdə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (NRYTN) “Yüksək Texnologiyalar Parkı”, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Beynəlxalq İqtisadiyyat Məktəbinin (ISE) əməkdaşlığı çərçivəsində UNEC-də “Bilik əsaslı iqtisadiyyata keçid: potensial imkanlar” mövzusunda keçirilən forumda vacib məsələlər müzakirə edilmişdir. Forumun məqsədi universitet-dövlət-sənaye (USD) üçbucağının effektiv işləməsində fundamental əsaslar olan institusional amillər, təhsil, innovasiya ekosistemi və İKT-nin rolunun ortaya qoyulduğu uyğun müzakirə mühitinin yaradılması olmuşdur. Müzakirələr zamanı bilik əsaslı iqtisadiyyata keçidin əhəmiyyəti vurğulanmış və universitet-dövlət-sənaye birliyinin faydalarına diqqət yetirilərək qeyd olunmuşdur ki, təhsilin keyfiyyətinin artırılması sırf real sektorla əməkdaşlıqdan keçir. Natiqlər biliklərə əsaslanan iqtisadiyyatın qurulmasının, innovasiyalı iqtisadiyyatın inkişafı, müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan innovasiya və yüksək texnologiya sahələrinin genişləndirilməsi və s. kimi vəzifələr daşıdığını vurğulamış və Azərbaycanın enerji ixrac edən ölkədən texnologiya ixrac edən ölkəyə çevrilməsinin əsas hədəf olduğunu bildirmişlər. Bundan başqa, forumda universitet-dövlət-sənaye əməkdaşlığının aktuallığından və mümkün inkişaf perspektivlərindən bəhs olunmuş və qeyd edilmişdir ki, UDS platformasının məqsədi innovativ inkişafa zəmin hazırlayan əsas tərəfləri – akademik mühit, dövlət və iş dünyasını – müştərək hədəflər istiqamətində, mütəmadi şəkildə bir araya gətirərək, sinerji dəyəri formalaşdırmaqdır. Forumda Azərbaycanda bilik iqtisadiyyatının qurulması və inkişaf etdirilməsi ilə bağlı konkret təkliflər dı irəli sürülmüşdür.

Göründüyü kimi, Azərbaycanda da bilik iqtisadiyyatının formalaşdırılması strateji vəzifə kimi qiymətləndirilir və bu istiqamətdə cəmiyyətin bütün maraqlı tərəflərinin iştirakı vacib sayılır. İnsan kapitalının inkişafını gələcək iqtisadi strategiyanın əsas hədəflərindən biri kimi müəyyən edən Azərbaycan dövləti də “qara qızılı” məhz bu istiqamətə yönəldərək gələcək milli inkişafa əsaslı zəmin yaradır. Şübhə yoxdur ki, Azərbaycanda insan kapitalının zəngin elmi bazaya söykənməsi bilik iqtisadiyyatına keçidi sürətləndirəcək və davamlı iqtisadi artımın təmin olunmasına imkan verəcək.

*Səbuhi MƏMMƏDOV,*
*“Xalq qəzeti”*